**AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ**

**ƏMR**

**23 fevral 2026-cı il** **3-15/3-2-86/2026**

## Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında İctimai Şuraya seçkilərin təşkili məqsədi ilə Seçki Komissiyasının yaradılması haqqında

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın 5.2-ci bəndinin və “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununun 6.1-ci maddəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin 2.2-ci, 2.3-cü və 2.4-cü bəndlərinə əsasən vətəndaş cəmiyyəti institutlarının təqdim etdiyi təklifləri nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında İctimai Şuraya seçkilərin təşkili məqsədi ilə aşağıdakı tərkibdə Seçki Komissiyası yaradılsın:

| | | |
|---|---|---|
| Elxan Kərimov | - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Daxili nəzarət şöbəsinin müdiri; |
| Əsəd İsmayılov | - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsinin müdiri; |
| Amil Həsənov | - | Azərbaycan Respublikası Energetika Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsinin müdiri; |

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
İmzalayan şəxs: Pərviz Şahbazov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/Aid%2FJBgymZt7sjYgn7ZPiRonxfvsSF1aC9rrhHuYLCw%3D

| | | |
|---|---|---|
| Mürvət Babayev | - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquq şöbəsinin müdir müavini; |
| Nofəl Mahmudov | - | “Beynəlxalq Ekoenergetika Akademiyası” İctimai Birliyinin üzvü; |
| Nurşən Şəfiyev | - | “Avroasiya Enerji və Davamlı inkişaf" İctimai Birliyinin İdarə Heyətinin üzvü; |
| Nemət Qasımov | - | “Azərbaycan Mühəndis və Energetiklər Cəmiyyəti” İctimai Birliyinin İdarə Heyəti sədrinin müavini; |
| Anar Abbaszadə | - | "Alternativ Enerji Araşdırmaları Mərkəzi" İctimai birliyinin Media və təşviqat şöbəsinin müdiri; |
| Ceyhun Axundov | - | “CBC Media” İctimai Birliyinin baş mühasibi. |

2. Seçki komissiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin tələblərinə uyğun olaraq ictimai şuraya seçkiləri təşkil etsin.

3. Ümumi şöbə bu əmrin surətinin Seçki Komissiyasının üzvlərinə çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə həvalə olunsun.

**Nazir** **Pərviz Şahbazov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
İmzalayan şəxs: Pərviz Şahbazov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/Aid%2FJBgymZt7sjYgn7ZPiRonxfvsSF1aC9rrhHuYLCw%3D